MAHIR İBRAHIMOV
*AMEA A.Bakıxanov adina Tarix İnstitutunun dissertantı*

# XƏZƏR BÖLGƏSI RUSIYA-SOVET-IRAN TARIXŞÜNASLIĞINDA

Avropa və Asiyanın sərhəddində yerləşən Xəzər dənizi şimaldan Rusiya, şərqdən Qazaxıstan və Türkmənistanla, cənubdan İranla və nəhayət qərbdən Azərbaycan dövlətinin ərazisi ilə əhatə olunmuş ən böyük qapalı su hövzəsidir.

Müasir Xəzərin şimal-cənub uzunluğu təqribən 1200 km, orta eni 320 km, sahil xəttinin uzunluğu 6,5 min km (o cümlədən, 800 km-i Azərbaycan ərazisindən keçir), sahəsi 370 min $km.^2$ (1929-cu ildə bu sahə 422 min $km^2$ olmuşdur), dünya okean səviyyəsindən 28 metr aşağıdır. Ərazisində təqribən 50-dək ada və irili-xırdalı 130-dək bura tökülən çay vardır. Son 160 illik tarixində Xəzərin səviyyəsi 25,2 m (1882) - 29,0 m (1977) arasında tərəddüd etmiş, səviyyənin enməsi 3,8 m, son 100 ildə isə 3,2 m olmuşdur [7. s.56].

Haqqında danışdığımız Xəzər çox geniş bir tarixə malikdir. Bu tarix onun əsrlərlə, minilliklərlə bölgədəki mühüm əhəmiyyətindən xəbər verir. Antik dövrün Xəzər dənizini öyrənməklə məşğul olmuş alim, səyahətçilərin maraqlı fikir və fərziyyələri əsasında demək olar ki, özünün çoxəsrlik tarixi ərzində Xəzərin çoxlu adları olmuşdur. Bəzi mənbələrdə bu adların sayı 40-dək, bəzilərində isə 100-dək göstərilir. Həmin adlar adətən onun sahilində məskunlaşmış əhalinin, böyük tayfa birliklərinin adına görə, ya da sahilyanı zolaqda yerləşən şəhər, vilayət, ölkələrin adlarına görə verilirdi. Bu baxımdan Xəzərin Hirkan, Abeskun, Xəzər, Kaspii, Pontik, Kimmerik, Sarmat, Xorasan, Tabasaran, Mazandaran, Göy, Ağ dəniz, Xvalinsk, Rus, Bakı, Dərbənd və s. kimi adları bununla bağlı olmuşdur [6. s.94-95]. Adlar içərisində yalnız Xəzər və Kaspi tarixi və coğrafi hüquq qazanaraq indiyə kimi qalmışdır.

Ümumiyyətlə, Xəzərin tarixi haqqında qədim dövrdə daha çox yunan müəllifləri (Hekatey, Heradot, Erotosfen, Strabon, Ptolomey və s.), ilk orta əsrlərdə isə yunanların fikirləri ilə tanış olmuş ərəb müəllifləri (Əbu-İshaq İstəxri, Əhməd Balazuri, Əl Məsudi, Həmdullah Qəzvini və s.), sonrakı əsrlərdə rus və Qərbi Avropa səyyahları (Marko Polo, Oleari, Kempfer, de Bruin, Saymonov, Lerge, Qmelin Andrusov, Abix və s.) məlumat vermişlər.

Tarixi mənbələrdən məlum olur ki, hələ qədim zamanlardan Xəzər zonasından, xüsusən Abşeron yarımadasından neft çıxarılmış, mübadilə edilmişdir. Və bu neft quyuları daim ayrı-ayrı hökmdarların inhisarında olmuşdur. Quyulardan götürülən mənfəət hökmdara məxsus idi. Bəzən bu quyular fövqəladə xidmətləri olan şəxslərə və ruhani idarələrə hökmdarın xüsusi fərmanı ilə bağışlanırdı.

Məsələn, «I Şah Abbas (1587-1628) iki nəfər Xındırzində (Bakı-Quba yolu üstündə kəndin adıdır) şeyxinə: Şeyx Əli və Şeyx Heydər Əliyə neft quyuları olan «vəqf» mülkü bağışlamış və onları bütün dövlət vergilərindən azad etmişdir... Yüz il keçdikdən sonra şah sultan Hüseyn (1694-1722) «Xıdırzində» şeyxi Baba Əliyə bütün neftdən istifadə etmək hüququ vermişdi»Bakı nefti Rusiya çarlarını da maraqlandırmışdı. 1723-cü ildə Bakı rus qoşunları tərəfindən işğal edildikdən sonra I Pyotr qoşun başçısı general Matyaşkinə yazırdı: «1000 pud və ya nə qədər mümkünsə ağ neft göndərməli»[3. s.10-11].

Rusiya dövlətinin Xəzər bölgəsində nüfuz dairəsini müntəzəm genişləndirmək uğrunda etdiyi cəhdlər hələ eramızın VIII-IX əsrlərindən başlayır. İqorun rəhbərliyi altında 913-cü ildə Xəzərə edilən yürüş, Moskva ətrafında birləşmədən sonra rusların Volqa

və Xəzər istiqamətindəki hökmranlıq cəhdləri, IV İvan Qroznının 1556-cı ildə Həştərxan xanlığını ləğv edərək Xəzər hövzəsinə gələcək sərbəst ekspansiyalarının əsasını qoyması, 1667-ci ildə Xəzər dənizinə yürüş üçün çar Aleksandr Mixayloviçin əmri ilə «Oryol» gəmisinin hazırlanması, 1668-ci ildə isə S.Razinin rəhbərliyi ilə Xəzəryanı şəhərlərə yürüşü Rusiyanın sistemli şəkildə Xəzəri işğal etmək niyyətini açıq-aşkar göstərmişdir . I Pyotrun dövründə bu siyasət dövlət qarşısında ən zəruri bir məsələyə çevrilmişdir. 1722-ci ildə o Həştərxanda hərbi limanın tikilməsi haqda verdiyi fərmanla Xəzərə nəzarətin gələcək hüquqi əsasını qoymuşdur. Peterburq (1723) və Rəşt (1731) müqavilələri bir daha İranı Xəzərdə Rusiyanın mövqeyi ilə hesablaşmağa məcbur etdi. Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri isə bütün bu proseslərin ən yüksək zirvəsi kimi İranın tək Xəzərdə yox, bütün Qafqaz regionunda dayaqlarına zərbə vurdu, faktiki olaraq İran sahilləri istisna olmaqla Xəzərin 80 faizdən çoxu Rusiyanın nəzarətinə keçdi. Bu zaman Xəzərə xüsusi marağı olan Böyük Britaniya da burada möhkəmlənmək üçün yollar axtarırdı. Lakin o, İranın müttəfiqi kimi Rusiya-İran müharibəsində öz köməkliyini göstərmədi. Çünki Xəzərin bütün limanlarını icarəyə verilməsi haqqında etdiyi tələb İran tərəfindən qəbul edilməmişdir. Xəzəri daim diqqət mərkəzində saxlayan imperialist ölkələri XX əsrin əvvəlllərində də hegemonluğu ələ almağa çalışırdılar. Denstervall 1918-ci ildə ingilis müdaxiləçilərinin planı haqqında belə yazırdı: «Xəzər dənizinə sahib olmaq bizim üçün sonuncu plan kimi qalmaqdadır» «Morninq post» qəzeti 1920-ci ildə qeyd etmişdir ki, «1918-ci ildə İngiltərə faktiki olaraq Xəzər dənizində hərbi dəniz donanmasına nəzarət üçün mübarizə aparırdı». İngilis işğalçı qüvvələrinin Bakıdan qovulmasına baxmayaraq onların zəbt etmək və ağalıq etmək fikri daim davam edirdi. 1920-ci ildə İngiltərənin admirallığı Bakını yenidən vacib hərbi donanma bazası kimi işğal etməyi tələb edirdi [5.s. 80].

Xəzər uğrunda XX əsrin əvvəllərində gedən bu amansız mübarizəyə baxmayaraq Türkmənçay (1828) müqaviləsi Xəzərlə bağlı iki dövlətin imzaladığı ticarət, gəmiçilik haqda 1834-cü il müqaviləsini nəzərə almasaq 1921-ci ilədək öz qüvvəsində qalmışdır.

Rusiyada məlum oktyabr hadisələrindən sonra bolşeviklərin hakimiyyətə gəlməsi Rusiya ilə İran arasında bağlanmış müqavilələrə və Xəzərdən istifadə məsələsinə yenidən baxmaq zərurətini meydana çıxardı. 26 fevral 1921-ci ildə Xəzərin hüquqi vəziyyətinin müəyyənləşməsinə yeni cəhd göstərilmiş, imzalanmış müqavilədə Rusiya Xəzərin cənub sahillərindən İrana istifadə hüquqi vermişdir. Bu istifadə hüquqi dəmir yollarına, şosse yollarına və bir neçə neft yataqlarına şamil edilsədə, faktiki olaraq 1953-cü ilədək buraya Rusitya nəzarət edirdi .

Lakin 1921-ci il Rusiya-İran arasında bağlanmış ilk bərabərhüquqlu siyasi müqavilənin üzərində bir qədər geniş dayanmaq lazımdır. Müqavilənin 3-cü maddəsində deyilir: «1881-ci ildə sərhəd xəttini hər iki yüksək səviyyədə danışıq aparan tərəflər İran və Rusiya arasında su sərhədi kimi qəbul etməyə razılaşır. Bu sərhəd qorunmalı və toxunulmazdır». Həmin maddədə bir neçə adalardan və sərhəd çaylarından istifadəni tənzimləyən razılaşmalar əldə etmişlər. Daha sonra hər iki tərəf sərhəd sularının istifadəsi və qəti tənzimlənməsi üçün komissiyanın yaradılması qərarına gəlmişlər . Müqavilənin 7-ci maddəsində deyilir ki, «Xəzərin Rusiyaya aid olan hissəsində hər iki tərəf razıdır ki, İran donanması gəmisinin heyətində üçüncü dövlətin Rusiyanın məqsədlərinə münasibətdə donanmada göstərdiyi fəaliyyəti qeyri-dostluq münasibətləri daşıyarsa Rusiya-Sovet dövləti İran dövlətindən göstərilmiş ziyanverici elementlərin aradan qaldırılmasını tələb etmək hüququna malikdir . Hərbi müdaxilə olarsa Rusiya da qarşılıqlı şəkildə öz sektorunu qoruyacaqdır. Həmin müqavilənin 10-cu maddəsində göstərilirdi ki, Rusiya üçüncü ölkənin Xəzərdə teleqraf xətləri və yollarının çəkilməsinə cəhd etməsinə hərbi müdaxiləsinə yol vermir . Daha maraqlı məqam odur ki, müqavilənin 11-ci

maddəsində göstərilir ki, «hüquqi müqavilənin I maddəsinin elan olunma prinsiplərindən irəli gələrək, həmçinin İran və Rusiya arasında 10 fevral 1828-ci ildə Türkmənçayda bağlanmış sülh müqaviləsinin maddəsinə uyğun olaraq: bu maddə hansı ki, qərara alırdı İran Xəzər dənizində donanma saxlamaq hüququndan məhrum edilir, o öz qüvvəsini itirir, bu müqaviləni bağlayan hər iki mötəbər tərəf razıdır ki, onlar 1921-ci il 26 fevral müqaviləsinin imzalanması anından etibarən bərabər səviyyədə Xəzər dənizində öz bayraqları altında sərbəst üzmək hüququna malikdirlər» . 26 maddədən ibarət bu müqavilə Moskvada Rusiya tərəfdən Georgi Çiçerin, İran tərəfdən R.Qaraxan-Məmlük tərəfindən imzalanmış və müddətsiz hesab olunmuşdur. Hər iki tərəf müqavilənin qüvvədən düşməsi haqqında elə bir maddə göstərməmişdir. Qeyd etməliyik ki, həmin müqavilənin şərtlərinə əsasən hər iki dövlətin Xəzərdə su sərhədi mövcud olmuşdur. Lakin sərbəst gəmiçiliklə hər iki dövlətin bərabər şəkildə məşğul olması o demək deyil ki, Xəzər ümumidir. Axı burada da maddələrin təhlili göstərir ki, Xəzərdə sərbəst üzmək qonşuluq və dostluq prinsiplərinə əsasən hər iki dövlətin razılaşması əsasında həyata keçirilmiş, lakin təbii sərvətlərdən istifadə, neft-qaz yataqlarının kəşfiyyatı, istismarı hər kəsin öz sərhədi daxilində aparılmışdır. 1927-ci il oktyabrın 1-də SSRİ və İran hökumətləri Pəhləvi limanı barədə rəsmi nota mübadiləsi imzaladılar. Həmin vaxt imzalanmış müqavilə SSRİ-İran arasında ikinci siyasi müqavilə hesab edilir . Sənədin mətnində vurğulanırdı ki, Xəzər Sovet-İran dənizidir. Daha sonra 1935-ci ildə «Ticarət, dənizçilik və məskunlaşma haqqında» 1940-cı ildə «Ticarət və dənizçilik haqqında» imzalanmış müqavilələrdə də Xəzər Sovet-İran dənizi adlandırılmış, beynəlxalq hüquq normalarına əsasən azad gəmiçiliyə dair razılaşmalar əldə edilmişdir .

Maraqlıdır ki, 20-ci illərdən başlayaraq Sovet hüquq elmi sonrakı çoxsaylı kitablarda, beynəlxalq hüquq dərsliklərində və müvafiq kurslarda öz mövqeyini qiymətləndirməyə tələsmiş, Xəzərin qapalı dəniz hesab edilməsi bir ehkama çevrilmişdir.

1940-cı ildə V.A.Bellinin redaktəsi ilə nəşr edilmiş «Beynəlxalq hərbi dəniz hüququna dair sorğu» kitabında qeyd edilirdi ki, coğrafi baxımdan qapalı olan və iki dövlətin SSRİ-nin və İranın ərazisi ilə əhatə olunmuş Xəzər dənizi Sovet-İran dənizi hesab edilir .

1957-ci ildə nəşr edilmiş «Beynəlxalq hüquq» dərsliyində də açıq dənizlə əlaqəsi olmadığı üçün Xəzər qapalı dəniz kimi qəbul edilirdi. Xəzərin hüquqi vəziyyətinə dair ziddiyyətli nöqteyi nəzərlərə 1966-cı ildə P.D.Bariddinin redaktəsi ilə nəşr edilmiş «Beynəlxalq hərbi dəniz hüququna dair sorğu» kitabında rast gəlmək olar. Bu kitabın müəlliflərindən biri D.A.İvanaşşenkonun fikrincə sahilyanı ölkələrin dövlət sərhədləri hüdudunda olan daxili milli sular, dəniz-göllər özlərinin hüquqi vəziyyətinə və gəmiçilik rejiminə görə qapalı dənizlərə aiddir və Xəzər dənizi də bu qəbildəndir. Həmin əsərdə V.D.Luqonovun yürütdüyü mühakimələr də ziddiyyətlidir. O, əvvəl bildirir ki, Xəzərin istər açıq dənizlə, istərsə də okeanla əlaqəsi yoxdur və buna görə də beynəlxalq hüquq mövqeyindən Xəzər qapalı hövzədir. Elə burada müəllif tamamilə başqa, bu dəfə düzgün ideya irəli sürərək qeyd edirdi ki, okeana çıxışı olmayan Xəzər dənizi iki dövlətin, Sovet İttifaqı ilə İranın arasında yerləşən tipik sərhəd gölüdür». Lakin o bəzən də Xəzəri Sovet-İran dənizi adlandırırdı . Həmin konsepsiyanın təsiri altında F.S.Boytsov da belə hesab edirdi ki, qapalı dəniz-göl olan Xəzər bağlanmış sazişlərə müvafiq olaraq Sovet-İran dənizi hesab edilməlidir [4. s.46].

Bu məsələdə İran dövlətinin mövqeyi yuxarıda göstərilənlərlə analojidir. Hətta İranın milli qanunvericiliyində öz əksini tapmış qapalı dəniz ideyası haqqında V.Y.Şestopalov qeyd edirdi ki, 1959-cu il 12 aprel tarixli (ərazi suları haqqında qanuna düzəliş edilməsi barədə – M.İ.) qanunda bu barədə məxsusi qeyd şərti olmasada İran tərəfindən qəbul edilmiş qanunlara və müqavilə hüquq praktikasına əsasən demək olar ki, hə-

min qanunun müddəaları qapalı dəniz sayılan Xəzər dənizinin hövzəsinə şamil edilə bilməz. Bu fakt hələ «kontinental şelf haqqında» 19 iyul 1955-ci il tarixli qanunun 2-ci maddəsinə qeyddə öz əksini tapmışdır. Orada göstərilirdi ki, beynəlxalq hüququn qapalı dənizlər barədə müddəaları Xəzər dənizinə tətbiq edilir. İrana gəldikdə isə qeyd edilirdi ki, «İran sahilləri və İran adaları ilə həmhüdud olan kontinental şelfdə yerləşən sualtı sahələr həmçinin dənizin dibinin və onun təkinin təbii ehtiyatları İrana məxsus olmuşdur, məxsus olacaqdır və onun suverenliyi altında qalır [1. s.225].

Ümumiyyətlə, Rusiya ilə İran arasında Xəzərə aid hüquqi müqavilə praktikası heç də təsdiq etməyə əsas vermir ki, Xəzərdə kondominium və ya birgə sahibkarlıq rejimi, yaxud birgə yurisdiksiya mövcud olmuşdur. 1921, 1924, 1925, 1927 və 1940-cı illərdə bağlanmış müqavilələrdə elə bir müddəa yoxdur ki, orada Xəzərin, onun ehtiyatlarının SSRİ və İranın birgə mülkiyyəti olması fikrini bilavasitə və ya dolayısı şəkildə təsdiq etsin. Bu təcrübə müasir dövrdə kondominium prinsipinin düzgün olmadığını göstərir. Digər tərəfdən hələ 1949-cu ildə SSRİ Xəzərdə neft ehtiyatlarının işlənməsinə Astara-Həsənqulu xəttinədək olan sektora İranın iştirakı olmadan, onunla məsləhətləşmədən başlamışdır. 1934-cü ildə SSRİ-nin sərhəd xidməti SSRİ DİXT-nin qərarına əsasən göstərilmişdir ki, İran mövcud Astara-Həsənqulu xəttini icazəsiz şimala doğru keçə bilməz. Bu xətt Sovet İttifaqının toxunulmaz su sərhəddidir [2. s.277].

Artıq 1970-ci ildə isə Xəzər dənizinin ilk dəfə olaraq sektorlara bölünməsi məsələsi müzakirə edilmiş, Sovet İttifaqının Neft Sənaye Nazirliyi tərəfindən bölgü prinsipi təsdiq olunmuşdur. Bu Xəzərdə kəşfiyyat işlərinin aparılması və neft-qaz yataqlarının işlənməsi üçün hövzəni milli sektorlara – Rusiya, Qazaxıstan, Azərbaycan, Türkmənistan, habelə keçmiş SSRİ-nin quru sərhədi ilə müəyyən edilən İran sektoruna bölünməsi rejimini həyata keçirmişdi. Bu bölgü Xəzərin hüquqi, coğrafi vəziyyətindən irəli gəldiyi üçün beynəlxalq təcrübədə hamı tərəfindən qəbul edilmiş orta xətt prinsipi ilə tənzimlənirdi .

Beləliklə, Sovet-İran müqavilə-hüquq praktikasında və beynəlxalq hüquq doktrinasına müvafiq olaraq Xəzər dənizinə qapalı dəniz beynəlxalq hüquqi-status təsbit edilmişdir. Bu da sonrakı prosesdə sərhəd gölünə tətbiq olunan bir sıra normaların təkmilləşdirilməsi və əsaslandırılması yolunda maneəyə çevrilmişdir. Elə Xəzərin beynəlxalq hüquqi vəziyyətində bugünki qeyri-müəyyənlik məhz bu cür praktikanın nəticəsidir.

### *ƏDƏBİYYAT*

1.Aliev H. Azerbaijan Oil in the World Policy. (Complers; Gasan Gasanov, Ilham Aliev) Baku, 1997, p.376
2.Yenə orada. s 277.
3.İsmayılov M., İbrahimov M. Azərbaycan neft sənayesinin inqilabaqədərki tarixi. Bakı, Elm, 1991, 281 s.
4.Məmmədov R. F. Xəzərin statusu. «Dirçəliş», 1998, № 2, c.46.
5.Тузмухамедов Р. А. Советско-Иранское отношения (1917-1921). Москва, 1960, с.378
6.Жило П. В. О назначениях Каспийского моря. ( Известия А. Н. Азерб.ССР. Серия геолог-географ.наук) Б. , 1960. № 4 с. 94-95
7.Hydrometeorology and enviroumental monitoring. 1999. №2. p.56.

**ИБРАГИМОВ МАХИР**

## КАСПИЙСКАЯ РЕГИОН РОССИЯ, СОВЕТСКАЯ И ИРАНСКАЯ ИСТОРИЯ

Статья исследует роль в политическом отношении Каспийского моря как очень важные проблемы в регионе. Берег или интерес в этот основной и интеграции стран, исторических взгляда понижены к его сущности. Политический обзор между обрабатывает в современном

политическом процессе, проанализирован Советским и Россия, которую его результаты освещают. Влияние баланса во внешней политике Азербайджана вовлечено для с конкретными фактами и геополитической ситуации другой России и Ирана государства к исследованию.

**MAHIR IBRAHIMOV**

**CASPIAN REGION RUSSIA, SOVIET AND IRAN HISTORY**

Article investigates role in political attitude of the Caspian Sea as very important problems in the region. Shore or interest in this basic and of the interests of countries historical and look is dropped to his essence. Political panorama in between process in modern political process is analysed soviet and Russia his results lighten. Influence of balance in foreign policy of Azerbaijan is involved for with concrete facts to geopolitical situation of the other Russia and Iran states to investigation.

***Rəyçilər: s.e.n.Ş.Bağırov, t.e.d.A.C.İsgəndərov.***

***AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquqi İnstitutunun «Politologiya» şöbəsinin 11 noyabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №12).***